AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

TKTA
Təhsildə Keyfiyyət Təminatı Agentliyi

İLLİK HESABAT

www.tkta.edu.az

2022

MÜNDƏRİCAT

- Haqqımızda
- Ümumi məlumat
- İl ərzində görülmüş işlər
- Keyfiyyət təminatı
- Məktəblərdə keyfiyyət prossesi
- Qeyri-formal və informal təhsil
- Tanınma

HAQQIMIZDA

Agentlik ölkə başçısının 29.12.2019-cu il tarixli 907 nömrəli Fərmanı ilə yaradılmış və 09.01.2020-ci ildə dövlət qeydiyyatına alınmışdır.

Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malikdir.





ƏSAS HƏDƏFLƏR

Azərbaycan Respublikasında təhsildə effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etmək

Keyfiyyət nəticələri və əhatəliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini formalaşdırmaq

Müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik rəqabət qabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışına dəstək göstərmək

ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

- Təhsil müəssisələrinin və təhsil proqramlarının akkreditasiyasını həyata keçirmək
- Təhsil sistemlərində Daxili Keyfiyyət Təminatı (DKT) sistemlərinin qurulması və inkişafı ilə bağlı məsləhət və metodiki dəstək xidmətləri təşkil etmək
- Təhsil müəssəsinin nüfuzunun və mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasını təşviq etmək
- Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması
- Peşə təhsili üzrə qeyri-formal və informal təhsilin tanınmasını həyata keçirmək

HÜQUQ VƏ VƏZİFƏLƏRİ

- Agentliyin fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin təmin edilməsi
- Keyfiyyət təminatı mövzusunda fərdlərin səriştələrinin artırılması üzrə konfranslar, müşavirələr, seminarlar, təlimlər keçirmək və digər tədbirlər təşkil etmək
- Qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi texniki naliyyətlərin tətbiqini təmin etmək















2022-Cİ İL ƏRZİNDƏ GÖRDÜYÜMÜZ İŞLƏR

01 Keyfiyyət təminatı

02 Xarici kvalifikasiyaların tanınması

03 Qeyri-formal və informal təhsilin tanınması

04 Fəaliyyət Planı üzrə görülmüş digər işlər

KEYFİYYƏT TƏMİNATI

- Akkreditasiya Komissiyası tərəfindən Yekun Hesabatda verilən tövsiyələrin icrası və çatışmazlıqların aradan qaldırılması ilə əlaqədar görülmüş işlərə dair fəaliyyət planında nəzərdə tutulmuş aşağıda adları qeyd olunmuş 15 Ali Təhsil Müəssisəsində (ATM) monitorinqlər təşkil edilmişdir:

- Naxçıvan Dövlət Universiteti
- Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
- Mingəçevir Dövlət Universiteti
- Azərbaycan Turizm və Menecment Universiteti
- Azərbaycan Dövlət Aqrar Universiteti
- Azərbaycan Memarlıq və İnşaat Universiteti
- Dövlət Gömrük Komitəsinin Akademiyası
- Bakı Slavyan Universiteti
- Bakı Xoreoqrafiya Akademiyası
- Lənkəran Dövlət Universiteti
- ADA universiteti
- Azərbaycan Kooperasiya Universiteti
- Bakı Qızlar Universiteti
- Bakı Avrasiya Universiteti
- Bakı Dövlət Universiteti







- Elm və Təhsil Nazirliyinin (ETN) 2022-ci il üzrə Fəaliyyət Planının 4.11-ci istiqamətinə uyğun olaraq, 2022-ci ilin dekabr ayı ərzində Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış aşağıda adları qeyd olunmuş 10 peşə təhsili müəssisəsində keyfiyyətə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə monitorinqlər keçirilmişdir:

- Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi
- Abşeron Binə Peşə Liseyi
- Bakı Kompüter Peşə Liseyi
- 15 nömrəli Bakı Peşə Liseyi
- 18 nömrəli Bakı Peşə Liseyi
- 3 nömrəli Bakı Peşə Məktəbi
- 6 nömrəli Bakı Peşə Məktəbi
- 7 nömrəli Bakı Peşə Məktəbi

- ETN-nin Fəaliyyət Planının müvafiq bəndinə uyğun olaraq, 2022-ci ilin dekabr ayında aşağıda adları qeyd olunmuş 30 məktəbəqədər təhsil müəssisəsində pilot monitorinqlər keçirilmişdir:

2022-ci ilin dekabr ayı

30 məktəbəqədər təhsil müəssisəsində pilot monitorinqlər keçirilmişdir.

- 141 saylı körpələr evi-uşaq bağçası
- 158 saylı körpələr evi-uşaq bağçası
- 89 saylı sanator tipli uşaq bağçası
- Bulaq körpələr evi-uşaq bağçası
- 300 saylı körpələr evi-uşaq bağçası
- 109 saylı körpələr evi-uşaq bağçası
- 198 saylı körpələr evi-uşaq bağçası
- 260 saylı körpələr evi-uşaq bağçası
- Könül körpələr evi-uşaq bağçası
- 23 saylı körpələr evi-uşaq bağçası
- 199 saylı körpələr evi-uşaq bağçası
- 207 saylı körpələr evi-uşaq bağçası
- 303 saylı körpələr evi-uşaq bağçası
- 66 saylı körpələr evi-uşaq bağçası
- 27 saylı körpələr evi-uşaq bağçası
- 151 saylı körpələr evi-uşaq bağçası
- 329 saylı körpələr evi-uşaq bağçası
- 172 saylı körpələr evi-uşaq bağçası
- 204 saylı körpələr evi-uşaq bağçası
- Şəngülüm körpələr evi-uşaq bağçası
- 191 saylı körpələr evi-uşaq bağçası
- 230 saylı körpələr evi-uşaq bağçası
- 332 saylı uşaq bağçası
- Turac uşaq bağçası
- 262 saylı körpələr evi-uşaq bağçası
- 202 saylı körpələr evi-uşaq bağçası
- 288 saylı körpələr evi-uşaq bağçası
- 316 saylı körpələr evi-uşaq bağçası
- İnci körpələr evi-uşaq bağçası
- 82 saylı uşaq bağçası

- Qeyd edək ki, məktəbəqədər təhsil müəssisələrində daxili keyfiyyət təminatı sisteminin yaradılması və xarici keyfiyyətə nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə hesabat və keyfiyyət monitorinqinin aparılması üçün "checklist" formasında sənəd hazırlanmışdır. Bir neçə ölkənin təcrübəsinin öyrənilməsi nəticəsində hazırlanmış sənəd UNICEF Azərbaycanın müvafiq layihəsi çərçivəsində ölkəmizdə səfərdə olan məktəbəqədər təhsil üzrə beynəlxalq ekspert Alejandra Cortázar ilə müzakirə edilmiş, 28 sentyabr tarixində xanım Cortázar tərəfindən təqdim edilmiş rəylər əsasında sənəd təkmilləşdirilmişdir. Sözügedən sənəd üzrə işlər son olaraq ETN-in Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsinin rəy və təklifləri də nəzərə alınmaqla tamamlanmışdır.



"Ali Təhsildə Keyfiyyət Təminatı" adlı beynəlxalq forum

- 2022-ci ilin 5-6 may tarixlərində ali təhsildə daxili və xarici keyfiyyət təminatı, tədqiqat potensialının inkişafı, eləcə də ATM-lərin əmək bazarı ilə əlaqələndirilməsi məsələlərini müzakirə etmək məqsədi ilə **"Ali Təhsildə Keyfiyyət Təminatı"** adlı beynəlxalq forum təşkil edilmişdir. Tədbirdə Elm və Təhsil naziri cənab Emin Əmrullayev, Türkiyə Respublikasının Ali Təhsildə Keyfiyyət Təminatı Şurasının (YÖKAK) sədri Muhsin Kar, Böyük Britaniyanın Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyinin direktoru Vicki Stott, Niderland Krallığının Akkreditasiya Təşkilatının direktoru Luut Kroes və Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin vitse-prezidenti Olgun Çiçek, Latviyanın Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sədri Jolanta Silka, Qazaxıstan Respublikasının Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyinin (IAAR) direktoru Alina Jumaqulova iştirak etmişdir.

- 5 may 2022-ci il tarixində Birləşmiş Krallığın Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyi (QAA) və Niderland Krallığının Akkreditasiya Təşkilatı (NVAO) ilə TKTA arasında əməkdaşlıq memorandumu imzalanmışdır. İmzalanan əməkdaşlıq memorandumlarının əsas məqsədi tərəflər arasında təcrübə mübadiləsi, ATM-lərin akkreditasiyası və qiymətləndirilməsi prosesində iştirak, ehtiyac yaranarsa, tərəflərə təlimlərin təşkili, təhsildə keyfiyyət təminatı sahəsi üzrə həyata keçirilən layihələrdə əməkdaşlıq etməkdən ibarətdir.
- Ali təhsildə institusional və proqram akkreditasiyasının aparıcı beynəlxalq təcrübəyə əsaslanması, TKTA-nın beynəlxalq əməkdaşlığının gücləndirilməsi və lazım gələrsə, TKTA-nın fəaliyyət istiqamətləri üzrə müvafiq prosedurların təkmilləşdirilməsi üçün konsaltinq xidmətlərinin göstərilməsi məqsədi ilə Beynəlxalq Məşvərət Şurası yaradılmışdır.



Ali Təhsildə Keyfiyyət Təminatı Agentliyi (QAA) və Niderland Krallığının Akkreditasiya Təşkilatı (NVAO) ilə TKTA arasında əməkdaşlıq memorandumu imzalanmışdır.

- 2022-ci il tarixlərində Türkiyənin İstanbul şəhərində Mərkəzi və Şərqi Avropa Ölkələrinin Keyfiyyət Təminatı Agentlikləri Şəbəkəsi (CEENQA) təşkilatçılığı ilə keçirilən **"Keyfiyyət təminatı agentliklərinin müstəqilliyi"** mövzusuna həsr olunmuş seminar çərçivəsində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə Gürcüstanın Təhsilin Keyfiyyətinin Artırılması üzrə Milli Mərkəzi (NCEQE) arasında əməkdaşlıq memorandumu imzalanıb.







Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə Gürcüstanın Təhsilin Keyfiyyətinin Artırılması üzrə Milli Mərkəzi (NCEQE) arasında əməkdaşlıq memorandumu imzalanıb

- 29-30 sentyabr 2022-ci il tarixlərində TKTA-nin təşkilatçılığı ilə Baku Marriott Boulevard Hoteldə **"Təhsildə davamlı keyfiyyət təminatı"** adlı **Beynəlxalq Konfrans** keçirilmişdir. İki gün davam edən Konfransda keyfiyyət təminatı sahəsi üzrə Avropa və dünyanın qabaqcıl beynəlxalq təşkilatlarından olan Niderland Krallığının Təhsil üzrə İnspeksiya İdarəsinin Ali Təhsil Departamentinin direktoru Hendrik Martijnse, Ali təhsil üzrə beynəlxalq ekspert, 2009-2013-cü illərdə Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiyasının (ENQA) prezidenti olmuş Achim Hopbach, Ali Təhsildə Keyfiyyət Təminatı Agentliklərinin Mərkəzi və Şərqi Avropa Şəbəkəsinin (CEENQA) vitse-prezidenti Olgun Çiçek, Təhsil İnstitutunun direktoru Rüfət Əzizov, Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev ali təhsildə daxili və xarici keyfiyyət təminatı sisteminin Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlara (ESG) uyğun təşkil edilməsi, ümumi və ali təhsil pillələri arasında keyfiyyət təminatının davamlılığının təmin edilməsi barədə mövzular ətrafında müzakirələr aparılmışdır.



Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) təşkilatçılığı ilə Baku Marriott Boulevard Hoteldə "Təhsildə davamlı keyfiyyət təminatı" adlı Beynəlxalq Konfrans keçirilmişdir.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təşkilatçılığı ilə Baku Marriott Boulevard Hoteldə "Təhsildə davamlı keyfiyyət təminatı" adlı Beynəlxalq Konfrans keçirilmişdir.













QƏBUL OLUNMUŞ QƏRARLAR VƏ GÖRÜLMÜŞ İŞLƏR

- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30 sentyabr 2022-ci il tarixli KQ-05 nömrəli Qərarı ilə "Ali təhsil müəssisələrinin institusional və proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" təsdiq edilmişdir. Prosesin davamı olaraq, ali təhsil müəssisələrinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları əsasında 2022/23-cü tədris ili üzrə ali təhsil müəssisələrinin institusional akkreditasiyası qrafiki təsdiq olunmuşdur.
- Ali təhsil pilləsi üzrə institusional akkreditasiya üzrə qiymətləndirmə metodologiyası hazırlanaraq təsdiq olunmuşdur.
- 2022-ci il ərzində TKTA-yi 31 təhsil müəssisəsinin (17 məktəbəqədər təhsil müəssisəsi, 4 ümumi təhsil müəssisəsi, 1 ali təhsil müəssisəsi-Xəzər universitetinin Gəncə filialı, 9 əlavə təhsil müəssisəsi) müraciəti əsasında təhsil fəaliyyətinin lisenziyalaşdırılması ilə bağlı rəyvermə prosesində iştirak edilmişdir.
- 2022-ci ildə aşağıda adları göstərilmiş 20 ATM və 4 OİTM-ə daxili və xarici keyfiyyət təminatına dair müxtəlif mövzularda təlimlər keçirilmişdir:

- Naxçıvan Dövlət Universiteti
- Naxçıvan Müəllimlər İnstitutu
- Naxçıvan Universiteti
- Mingəçevir Dövlət Universiteti
- Azərbaycan Turizm və Menecment Universiteti
- Azərbaycan Universiteti
- Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
- Azərbaycan Texniki Universiteti
- Azərbaycan Dövlət Pedaqoji Universiteti
- Gəncə Dövlət Universiteti
- Azərbaycan Texnologiya Universiteti
- Azərbaycan Kooperasiya Universiteti
- Azərbaycan Memarlıq və İnşaat Universiteti
- Sumqayıt Dövlət Universiteti
- Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
- Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
- Bakı Mühəndislik Universiteti
- Bakı Avrasiya Universiteti
- Bakı Slavyan Universiteti
- ADPU Şəki filialı
- 1 nömrəli Bakı Tibb Kolleci
- Mingəçevir Turizm Kolleci
- İnşaat Kolleci

- Bakı Slavyan Universiteti və Azərbaycan Texniki Universitetində qrant layihələrin icrasına dəstək verilmişdir. Eyni zamanda, Azərbaycan Texniki Universitetinə daxili keyfiyyət təminatına dair metodoloji dəstək xidməti göstərilmişdir.
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetində və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 68 tyutorun sertifikatlaşması təmin edilmişdir.
- Ali və orta ixtisas təhsili müəssisələrində daxili və xarici keyfiyyət təminatı ilə əlaqəli müxtəlif istiqamətlər üzrə təşkil olunmuş təlimlərin nəticəsi olaraq 1000-dən çox akademik və inzibati heyətə TKTA tərəfindən müvafiq sertifikatlar təqdim olunmuşdur.
- Akkreditasiya prosesində ekspert qismində iştirak etmək üçün müraciət etmiş 1500-dən çox ekspertdən qoyulmuş minimal tələblərə cavab verən 671 ekspert 1-ci modul təlimə, 1-ci modulu müvvəfəqiyyətlə tamamlayan 338 ekspert isə 2-ci modul təlimə cəlb olunmuşdur.
- 10 peşə təhsili müəssisəsinin rəhbərlərinə, eləcə də peşə təhsili müəssisələrinin qiymətləndirilməsində iştirak edəcək 10 ekspertə keyfiyyət təminatına dair təlimlər təşkil olunmuşdur.
- 30 məktəbəqədər təhsil müəssisələrinin rəhbərlərinə, eləcə də məktəbəqədər təhsil müəssisəsinin qiymətləndirilməsində iştirak edəcək ekspertlərə keyfiyyət təminatına dair təlimlər təşkil olunmuşdur.

XARİCİ KVALİFİKASİYALARIN TANINMASI

- Hesabat dövrü ərzində (01.01.2022-30.11.2022) **"xarici kvalifikasiyaların tanınması"** ilə bağlı 3295 müraciət üzrə ekspertiza həyata keçirilmişdir. Keçirilmiş ekspertizanın nəticəsində 2668 müraciət üzrə yekun olaraq müsbət rəy verilmiş və müraciət sahiblərinə xarici ali təhsil ixtisasının tanınması haqqında şəhadətnamələr təqdim olunmuşdur. Digər 627 müraciət üzrə yekun olaraq mənfi rəy verilmiş və müraciət sahiblərinin ali təhsil ixtisaslarının ölkə ərazisində tanınmaması haqqında qərar verilmişdir. Əlavə olaraq, həyata keçirilmiş optimallaşdırma və səmərələşdirmə tədbirləri nəticəsində müraciətlərə ortalama baxılma müddəti 12 iş gününə qədər endirilmişdir (Son 3 il üzrə bu göstərici ortalama 39 iş günü olmuşdur).

3295
müraciət

müsbət rəy almış

2668

mənfi rəy almış

627



Belçika Krallığının Brüssel şəhərində təşkil olunmuş "Tanınma diqqət mərkəzində" konfransında



İrlandiya Respublikasının Dublin şəhərində baş tutmuş Avropa Milli Məlumat Mərkəzlərinin Şəbəkəsinin 29-cu illik görüşündə

- Xarici kvalifikasiyaların tanınması üzrə beynəlxalq təcrübəni öyrənmək və Agentliyin bu sahədə əldə etdiyi təcrübəni paylaşmaq məqsədi ilə xarici kvalifikasiyaların tanınması şöbəsinin əməkdaşları 13 may 2022-ci il tarixində Belçika Krallığının Brüssel şəhərində təşkil olunmuş "Tanınma diqqət mərkəzində" konfransında, 19-23 İyun 2022-ci il tarixində İrlandiya Respublikasının Dublin şəhərində baş tutmuş Avropa Milli Məlumat Mərkəzlərinin Şəbəkəsinin (ENIC-NARIC Networks) 29-cu illik görüşündə və 17-20 oktyabr 2022-ci il tarixlərində Şotlandiyanın Glazqo şəhərində Beynəlxalq Kvalifikasiyaları Qiymətləndirmə Mütəxəssisləri Assosiasiyasının (TAICEP) dəstəyi ilə təşkil olunmuş beynəlxalq konfransda ölkəmizi təmsil etmişdirlər. Bundan əlavə, Təhsildə Keyfiyyət Təminatı Agentliyi 05.09.2022-ci il tarixində Beynəlxalq Kvalifikasiyaları Qiymətləndirmə Mütəxəssisləri Assosiasiyası (TAICEP) təşkilatının tamhüquqlu üzvü seçilmişdir.

- **"Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"** layihəsinə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən verilmiş yekun rəylər əsasında mərhələli müzakirələr təşkil olunmuş və son düzəlişlər edilərək təsdiq üçün yenidən Nazirlər Kabinetinə təqdim edilmişdir. Eyni zamanda, yeni Qaydaların özündə ehtiva etdiyi yanaşmalar haqqında ictimaiyyətin dolğun şəkildə məlumatlandırılması məqsədilə izahlı posterlər və pres-reliz layihəsi tərtib olunmuşdur. Qaydaların təsdiq olunmasından (növbəti il üçün gözlənilir) sonra sözügedən məlumatlar Agentliyin rəsmi saytında, habelə, rəsmi sosial şəbəkə hesablarında paylaşılacaqdır.

QEYRİ-FORMAL VƏ İNFORMAL TƏHSİLİN TANINMASI

- 2022-ci il ərzində qeyri-formal və informal təhsilin tanınması prosesi üzrə ümumilikdə 10 ixtisas üzrə 900 sertifikat və 63 diplom təqdim olunmuşdur. (Bu göstərici əvvəlki il üçün ümumilikdə 176 sertifikat və 11 diplom olmuşdur). Belə ki, "Tikiş avadanlıqlarının operatoru, tikişçi" ixtisası üzrə 214 sertifikat, 15 diplom, "Bərbər" ixtisası üzrə 205 sertifikat, 11 diplom, "Avtomobillərin təmiri çilingəri" ixtisası üzrə 17 sertifikat, "Qənnadçı-şirniyyatçı" ixtisası üzrə 224 sertifikat, 19 diplom, "Mobil telefonların təmiri ustası" ixtisası üzrə isə 127 sertifikat və 12 diplom, "Ərzaq və qeyri-ərzaq mallarının satıcısı, nəzarətçi-xəzinədar" ixtisası üzrə 20 sertifikat və 2 diplom, "Elektrik qaz qaynaqçısı" ixtisası üzrə 18 sertifikat, "Baytar texniki" ixtisası üzrə 23 sertifikat, "Turizm sahəsində iaşə üzrə mütəxəssis" ixtisası üzrə isə 8 sertifikat təqdim olunmuşdur.

Ümumilikdə
10 ixtisas
900 sertifikat

- "Qənnadçı-şirniyyatçı" ixtisası üzrə 224 sertifikat, 19 diplom
- "Mobil telefonların təmiri ustası" ixtisası üzrə 127 sertifikat və 12 diplom
- "Ərzaq və qeyri-ərzaq mallarının satıcısı, nəzarətçi-xəzinədar" ixtisası üzrə 20 sertifikat və 2 diplom
- "Tikişçi" ixtisası üzrə 214 sertifikat, 15 diplom
- "Bərbər" ixtisası üzrə 205 sertifikat, 11 diplom
- "Avtomobillərin təmiri çilingəri" ixtisası üzrə 17 sertifikat
- "Elektrik qaz qaynaqçısı" ixtisası üzrə 18 sertifikat
- "Baytar texniki" ixtisası üzrə 23 sertifikat
- "Turizm sahəsində iaşə üzrə mütəxəssis" ixtisası üzrə 8 sertifikat

- Qeyri-formal və informal yollarla əldə olunmuş səriştələrin tanınması istiqamətində daha 10 - "Turizm sahəsində iaşə üzrə mütəxəssis", "Baytar texniki", "Elektrik qaz qaynaqçısı" və "Tikiş avadanlıqlarının operatoru, tikişçi", "Dayə", "Bağban-dekorator", "Bitkiçilik mütəxəssisi", "Heyvandarlıq mütəxəssisi", "Əməliyyatçı-mühasib" "Dərzi" ixtisasları üzrə sahə üzrə ekspertlər tərəfindən 3310 sual və 218 tapşırıq hazırlanmış və ekspertizası həyata keçirilmişdir.



- 2022-ci ildə Agentlik tərəfindən təşkil olunmuş qeyri-formal və informal təhsilin tanınması prosesi və testologiya elmini əhatə edən təlimləri müvəffəqiyyətlə başa vurmuş müxtəlif peşə ixtisasları üzrə fəaliyyət göstərən daha 30 mütəxəssis Qiymətləndirmə Komissiyalarının fəaliyyətinə ekspert qismində cəlb olunma hüququ qazanmışdır.









FƏALİYYƏT PLANI ÜZRƏ GÖRÜLMÜŞ DİGƏR İŞLƏR

- "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması üzrə 2022-ci il üzrə Yol Xəritəsi"nin icrası ilə bağlı Nazirliyin Tədbirlər Planının 5-ci bəndinə əsasən, məsul qurum olaraq TKTA tərəfindən elm və ali təhsil müəssisələrinin beynəlxalq elmi bazalara çıxışının mərkəzləşmiş qaydada dövlət tərəfindən maliyyələşdirilməsi imkanlarının qiymətləndirilməsi və bu sahədə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması nəzərdə tutulmuşdur. Buna müvafiq olaraq, TKTA ilə "Elsevier" şirkəti arasında aparılan danışıqlar nəticəsində cari ilin iyun ayında 100-150 müəssisədən ibarət konsorsium üçün nəzərdə tutulmuş, şirkətin "Scopus" və "ScienceDirect" bazalarına növbəti 1 il (12 ay) üçün çıxışı əhatə edən kifayət qədər əlverişli qiymət paketi təklifi əldə olunaraq aidiyyəti üzrə təqdim olunmuşdur. Hazırda məsələ ilə bağlı aidiyyəti üç qurumun (Elm və Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi) rəy və təklifləri nəzərə alınmaqla, Nazirlər Kabineti tərəfindən yekun münasibət bildirilməsi gözlənilir.

25.07.2022-31.08.2022-ci il tarixlərində tələbələrin köçürülməsi (transfer) üzrə elektron sənəd qəbulu həyata keçirilmişdir. Transfer.edu.az portalı vasitəsilə həyata keçirilən elektron sənəd qəbulu zamanı ümumilikdə 4512 müraciət qeydə alınıb. Onlardan 50 nəfəri magistratura səviyyəsindən, 532 nəfəri xaricdə yerləşən ali təhsil müəssisəsindən, 528 nəfəri orta ixtisas təhsili müəssisəsindən, 3402 nəfəri isə ölkə daxilində yerləşən ali təhsil müəssisəsindən köçürülmək və ya ixtisasını dəyişdirmək üçün qeydiyyatdan keçmişdir. Onlardan 2852 nəfərin müraciəti müsbət cavablandırılmışdır. Ali təhsil müəssisələrindən köçürülməsinə icazə verilən 2410 nəfərdən 2310-nu bakalavriat, 14-nü magistratura səviyyəsi üzrə, 86-nı xarici ali təhsil müəssisələrindən köçürülənlər, 442-sini isə orta ixtisas təhsil müəssisələrindən köçürülənlər təşkil etmişdir.

Transfer.edu.az portalı vasitəsilə həyata keçirilən elektron sənəd qəbulu

4512 müraciət

50

Magistratura səviyyəsindən

532

Xaricdə yerləşən ali təhsil müəssisəsindən

528

Orta ixtisas təhsili müəssisəsindən

3402

Daxilində yerləşən ali təhsil müəssisəsindən köçürülmək və ya ixtisasını dəyişdirmək

2022-ci il ərzində QS reytinqlərində ali təhsil müəssisələrinin beynəlxalq rəqabət qabiliyyətinin artırılması istiqamətində aşağıdakı tədbirlər həyata keçirilmişdir:

30 sentyabr 2021-ci il tarixindən etibarən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və QS "Quacquarelli Symonds" beynəlxalq reytinq agentliyi arasında icra olunan layihənin məqsədi QS qlobal (institusional) və QS regional reytinqində Azərbaycan ali təhsil müəssisələrinin mövqelərinin irəliləməsidir.

- Layihədə iştirak edən 6 ali təhsil müəssisəsi (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Bakı Mühəndislik Universiteti) üçün QS agentliyinin ekspertləri tərəfindən konsaltinq xidmətləri göstərilir.

- 2022-ci il ərzində QS agentliyinin nümayəndələri ilə QS 2023 reytinqlər tsiklinə hazırlıq prosesi, o cümlədən Azərbaycan ATM-ləri üzrə QS 2023 qlobal reytinqinin nəticələri haqqında görüşlər keçirilmişdir. ATM-lərin beynəlxalq reytinqlərdə mövqeyinin irəliləməsinə dəstək məqsədilə QS 2023 qlobal reytinqinin metodologiyası nəzərə alınmaqla Tədbirlər Planı hazırlanmış və müvafiq ATM-lərə təqdim olunmuşdur. Layihədə iştirak edən 6 ali təhsil müəssisəsinin QS qlobal reytinqinin metodologiyasına uyğun olaraq təhlili aparılaraq hesabat hazırlanmışdır.

- 2022-ci ilin noyabr ayından etibarən QS 2024 reytinqlər tsiklinə hazırlıq prosesinin başlaması ilə əlaqədar olaraq QS 2024 qlobal və QS 2024 regional reytinqlərində gözlənilən dəyişikliklər haqqında layihənin iştirakçıları üçün məlumatlandırma sessiyası təşkil olunmuşdur.







- 2022-ci il ərzində 65 məktəbdə kompleks ("full") inspeksiya, 37 məktəbdə tematik inspeksiyalar keçirilmiş, 27 məktəbdə isə ETN-nin sifarişi ilə innovativ məktəb layihəsi ilə əlaqədar xüsusi tematik inspeksiyalar keçirilmişdir. Tematik inspeksiyalar çərçivəsində 13 məktəbdə Öyrətmənin keyfiyyəti, Qiymətləndirmə - xüsusilə Formativ qiymətləndirmə istiqamətində; 24 məktəbdə Şagirdlərin davranışı və nizam-intizamı, Məktəbin maddi-texniki və tədris bazası, Şagirdlərin davamiyyətinin tənzimlənməsi, punktuallıq və müsbət davranışın təşviqi və Məktəbin illik fəaliyyət planı və məktəbdə sənədləşmə işləri istiqamətində və 27 məktəbdə Məktəbin infrastrukturu, STEAM, rəqəmsal bacarıqlar dərslərinin tədrisinin vəziyyəti, məktəb rəhbərliyinin sərişteliliyi istiqamətləri üzrə keyfiyyət monitorinqləri keçirilmişdir.

- 2022-ci ilin fevral ayı ərzində "Məktəb inspektoru" vakansiyası üzrə bütün mərhələlərdən uğurla keçmiş namizədlər üçün təlimlər keçirilmiş və sonrakı mərhələdə 28 nəfər inspektor sınaq inspeksiyalarına cəlb olunmuşdur. 2022-ci ilin noyabr ayında "Məktəb inspektoru" vakansiyası üzrə növbəti dəfə yazılı imtahan mərhələsi keçirilmiş və imtahan nəticələri namizədlərlə paylaşılmışdır.

65 məktəbdə kompleks inspeksiya

37 məktəbdə tematik inspeksiyalar

27 məktəbdə isə ETN-nin xüsusi tematik inspeksiyalar

"Preserve culture"

- "Preserve culture" layihəsi çərçivəsində aşağıdakı tədbirlər icra edilmişdir:
- "Preserve culture" layihəsinin birinci mərhələsi çərçivəsində ölkəmizin işğaldan azad olunmuş ərazilərində tarixi-memarlıq abidələrinin bərpasını sürətləndirmək məqsədilə noyabrın 14-dən 18-dək təlimlər təşkil edilmişdir
- Layihənin əsas məqsədi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa işlərinin yerli mütəxəssislər (memarlar, bərpaçılar, inşaatçılar, dizaynerlər) tərəfindən daha da keyfiyyətli aparılması, beynəlxalq təcrübə mübadiləsi, iştirakçıların müasirvə ənənəvi bərpa yanaşmalarındakı nəzəriyyələr və praktiki bacarıqlara yiyələnməsindən ibarətdir
- Birinci mərhələdə təşkil olunan təlimlər zamanı, mütəxəssislərin praktiki bacarıqlara yiyələnməsi məqsədi ilə Bakıda yerləşən Xanbaba hamamı üzərindən qabaqcıl avadanlıqlarla ölçülər aparılmış, müvafiq proqram təminatı vasitəsi ilə modellər hazırlanmış və 3d printerlər vasitəsi ilə çap olunmuşdur. Gələn il layihə çərçivəsində növbəti təlimlərin keçirilməsi planlaşdırılır





"Preserve culture" layihəsi

"Code for Future"

- "Code for Future" layihəsi çərçivəsində aşağıdakı tədbirlər icra edilmişdir:

  Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə 2021-ci ilin sentyabr ayından başlayaraq 1000-dən çox tələbənin mövcud bazar iqtisadiyyatının tələblərinə uyğun formalaşmasına və mütəmadi yenilənən texnoloji dəyişikliklərə uyğunlaşmasına dəstək göstərilməsi, o cümlədən onların İT sahəsində bilik və bacarıqlarının artırılması məqsədilə "Code for Future" layihəsi həyata keçirilməkdədir

- Ali təhsil müəssisələri ilə əməkdaşlıqla yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına hədəflənən peşəkar inkişaf proqramı çərçivəsində seçilmiş tələbələrə "Code Academy", "Alqoritmika", "İsrail-Azərbaycan Təlim Mərkəzi" və "DEV Education" şirkətləri tərəfindən 4 ay müddətində intensiv olaraq proqramlaşdırma, şəbəkə administratorluğu, İT mütəxəssisi ("helpdesk"), sistem və bulud texnologiyaları, Veb tərtibatçılıq və İngilis dili modulları tədris edilməkdədir. Cari ilin sonunda layihədən məzun olan tələbə/mütəxəssis sayı 2000 nəfərdən artıq olacaqdır.





"IELTS imtahanına təşviq"

- "IELTS imtahanına təşviq" layihəsi çərçivəsində aşağıdakı tədbirlər icra edilmişdir:
- 6 ali təhsil müəssisəsinin (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) 2022-ci il üçün prioritet istiqamətlər üzrə Fəaliyyət Planında insan kapitalının gücləndirilməsi məqsədilə elmi-pedaqoji heyət üzvlərinin və istedadlı təhsil alanların intensiv ingilis dili kurslarına cəlb edilməsi və ingilis dilinin mənimsənilməsi üçün uyğun mühitin yaradılması üzrə fəaliyyət istiqaməti qeyd olunmuşdur.
- Bu məqsədlə 28 oktyabr 2022-ci il tarixində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA), Təhsilin İnkişafı Fondu (TİF) və 6 ali təhsil müəssisəsi arasında "Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında" əməkdaşlıq müqaviləsi imzalanmışdır.
- TKTA-nın koordinatorluğu ilə həyata keçirilən və 2023-cü il ərzində icrası davam edəcək layihə çərçivəsində sözügedən 6 ali təhsil müəssisəsi üzrə IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 300-dək elmi-pedaqoji heyət üzvü və təhsil alanların bu imtahan üzrə ödənişlərinin TİF tərəfindən qarşılanması nəzərdə tutulur.





Q.Qarayev prospekti 2B
www.tkta.edu.az
info@tkta.edu.az